# Nəsrəddin Tusi — Ələmut giriftarı

*Böyük azərbaycan mütəfəkkiri Xacə Nəsirəddin Tusi həm filosof, astronom, riyaziyyatçı, tarixçi, ilahiyyatçı, hüquqşünas, dövlət xadimi olub...*

*O Marağadakı rəsədxananın tikintisinə başlamaq üçün lazım olan məsarifi Hülaku xana deyəndə, Xan şübhə ilə soruşdu: "Yəni, ulduzlar haqqında elm belə faydalıdır ki, rəsədxanaya bu qədər pul xərcləyək?" Nəsir cavabında söylədi: "İzn verin, bir nəfər həmin dağa qalxıb, ordan boş bir tası yerə atsın, ancaq bunu elə eləsin ki, heç kəs bilməsin". Belə də olur. Tas qayalara dəyə-dəyə qorxulu səslər çıxarır. Hülaku xanın ordusu vahiməyə düşür. Nəsirəddinsə bu zaman xanla birlikdə sakitcə oturub, qoşundakı vahiməni seyr edirlər. Nəsirəddin Hülaku xana deyir: "hökmdar, biz qayalardan gələn səsin səbəbini bildiyimizdən sakitcə əyləşmişik. Qoşunsa bunu bilmədiyi üçün təşvişdədir. Əgər biz səmada baş verən hadisələrin mahiyyətini irəlicədən bilsək, yer üzündə həmişə belə rahatlıq hökm sürər". Hülaku xanı elə inandırır ki, o, rəsədxananın tikintisinə razılıq verir və bu məqsədlə 20 min dinar pul buraxır. Sonralar böyük alim rəsədxanada çalışan yüzdən artıq alimə həmişəlik donluq kəsilməsinə də nail olur...*
*Rəsədxananın nəzdində 400 min nüsxəlik kitabxana və xüsusi məktəb vardı. Rəsədxanada türklər, farslar, ərəblər, monqollar, çinlilər, gürcülər, tatarlar, yəhudilər və digər millətlərin nümayəndələri çalışırdı. Tusinin tikdirdiyi rəsədxana öz həcminə görə Şərqin bütün məşhur rəsədxanalarını geridə qoyur.*
*Ehtimal var ki, o dövrün astronom və coğrafiyaçıları Kolumbdan çox-çox əvvəl Qərb yarımkürəsində, sonralar Amerika adlanacaq materikin varlığından xəbərdar imişlər.*
*Rəşidəddinin öz salnaməsində yazdığına, həmin dövrdə Camaləddin Buxariyə görə Pekində rəsədxana qurmaq tapşırılmışdı. Lakin o, bu tapşırığın öhdəsindən gəlməkdə çətinlik çəkirdi. Nəhayət, Çin alimi Fao Mun-çi ilə birlikdə Marağaya gəlib yalnız Nəsirəddinlə məsləhətdən sonra Pekində öz işlərini başa çatdırmış oldu...*
*Onu da deyək ki, XIV əsrdə Nəsirəddinin nəvə-nəticələri Marağadan Ordubada köçmüş, Səfəvilər_ dövründə onlar bir sıra dövlət vəzifələrində çalışmışlar. Hazırda Azərbaycan Respublikasında və İranda Nəsirəddin Tusinin çoxlu sayda varisləri yaşamaqdadır...*



...Hər varlığın özünə məxsus, başqa heç bir varlıqda olmayan, ya mənfi, ya da müsbət xüsusiyyəti var ki, onun mahiyyəti yalnız bu xüsusiyyətinə görə təyin edilir;
Məsələn, qılıncın təbiətində kəsmək, atın təbiətində suvariyə ram olub qaçmaq xüsusiyyəti vardır və başqa heç bir şey bu xüsusiyyətdə onlara bərabər ola bilməz. Doğrudur, qılınc baltayla, at yük daşımaqda ulaqla şərikli görünə bilər;
Məsələn, qılınc, lazım olduğundan nə qədər az güc və zor sərf etməklə o qədər asan kəssə, öz vəzifəsini daha yaxşı yerinə yetirmiş olar və öz növləri arasında daha kamil hesab edilər; at nə qədər bərk qaça bilsə, sahibinin əmrinə tabe olsa, yəhər və cilova yatsa, o qədər kamil hesab edilər. Naqislik də belədir: qılınc pis kəssə, ya heç kəsməsə, onu başqa dəmir yerinə işlədərlər və bununla onun rütbəsi aşağı düşmüş olar; at yaxşı qaça bilməsə, ya sahibinin əmrinə qulaq asmasa, dalına palan qoyub ulaq yerinə işlədərlər, bu, onun hünərinin naqisliyinə, dərəcəsinin azlığına dəlalət edər.
İnsanın da özünə aid elə xüsusiyyəti vardır ki, o, bunun vasitəsilə başqa varlıqlardan ayrılır; amma elə xüsusiyyətləri də var ki, onların bəzisi heyvanat, bəzisi nəbatat, bir qismi də cansız cisimlərlə şərikdir. Bu qüvvənin nəticəsində işlər də iki yerə bölünür: xeyir və şər, gözəl və çirkin; bunlar xoşbəxtlik və bədbəxtlik adı altında da ümumiləşir, başqa heyvanlar və bitkilərdə belə xüsusiyyət yoxdur. Deməli, kim bu qüvvədən düzgün istifadə etsə, öz səy və iradəsi nəticəsində arzu edilən fəzilətə çatsa, xoşbəxt olacaqdır; bu qüvvədən düzgün yararlanmasa, ya əks istifadə etsə, bədbəxt olacaqdır...

"Əxlaqi-Nasiri"dən